Ədəbiyyat QƏZETİ

# Ey mavi göylərin bəyaz və qızıl süsü



**Bilmirəm, gizli-gizli gəl dediyin**
**Ömür boyu incitdiyin mənmi?**
**Qədəhdəki meydənmi sərxoşam,**
**Yoxsa laübalı sevgindənmi?**

Arif NİHAT ASYA

## BAYRAQ

Ey mavi göylərin
bəyaz və qızıl süsü,
Bacımın gəlinlik paltarı,
şəhidimin üz örtüsü,
İşıq-işıq, dalğa-dalğa bayrağım!
Sənin dastanını oxudum,
sənin dastanını yazacağam!
Sənə mənim gözümlə baxmayanın
Məzarını qazacağam.
Səni salamlamadan
ötən quşun
Kefini pozacağam?

Dalğalandığın yerdə
nə qorxu, nə kədər,
Kölgəndə mənə də,
mənə də yer ver.
Sabah olmasın, günəş doğmasın,
nə olar:
Yurduma Ay-ulduzunun
işığı yetər.

Savaş bizi
qarlı dağlara
apardığı gün
Qızılı nurunda qızındıq;
Dağlardan
düzlərə endiyimiz gün
Kölgənə sığındıq.

Sən ey süzgün,
rüzgarlarda dalğalı;
Barışın göyərçini, savaşın qartalı, -
Ən yüksək yerlərdə açan çiçəyim.
Sənin altında doğuldum,
Sənin altında öləcəyəm.

Tarixim, şərəfim, şeirim,
hər şeyim,
Yer üzündə yer bəyən,
Hara sancılmaq istəsən,
Söylə, səni ora sancım!

## AĞI

Ağlasın,
barmaqları nur suyundan
xınalı qızlarım,
Ağlasın,
Marağa göylərindən
Yer üzünə baxan ulduzlarım.

Yollarda Gürşadlar uzanmış - ölü,
Ağlasın Ağölkə, ağlasın Südgölü.
İgidlərim üyüyür qürbət ellərdə,
Kimi Səmərqənddə,
Kimi Cəbərdə...

Cəbər yox, Tyan-şan yox,
Aral yox,
Bos mən necə varam?
Ağla, ey Tanrı dağlarından
endirilmiş Tanrım.
Bu dəli suların
Qolu nədən bükülməz,
Nədən Fərat,
Nədən Dəclə,
Nədən Araz -
Məndən doğar,
mənə tökülməz?

Mən ki, odla danışırdım,
sellə danışırdım,
İdillə, Dunayla,
Nillə danışırdım.
"Sanqaryos"u "Sakarya" yapan,
"İkonyom"u "Konya" yapan
Dillə danışırdım...

## ALPARSLAN

Nəvələrin dörd yana qol-qol getsin,
Malazgirtdən İstanbula yol getsin!
Güclüyəm deyənə gücünü göstər,
Anlamasa, Yer üzündən sil getsin!..

Şəhidlərim Tanrıya al-al getsin,
Yaralıma su verənə bal getsin!

Taclarını bir şey sanan gavurlar,
Taxtlı gəlib, taclı gəlib, qul getsin.
Fəqət, hərb bu: qalmaq da var, ölmək də;
Əsir olub qalmaqdansa, öl getsin.

Şəhidlərim Tanrıya al-al getsin,
Yaralıma su verənə bal getsin!

Döyüş vaxtı dimdik dayan ayaqda,
İki yandan sağ yüyürsün, sol getsin.
Olsa da son saatın, son anın,
Səndən aman diləyəni sal, getsin.

Şəhidlərim Tanrıya al-al getsin,
Yaralıma su verənə bal getsin!

Və könlündən keçib, bizə bir yarpaq,
Bir tumurcuq göndərənə gül getsin.
Toy-düyündə səsi coşsun davulun,
Qızlarıma duvaq getsin, tel getsin.

Şəhidlərim Tanrıya al-al getsin,
Yaralıma su verənə bal getsin!

* * *

Çocuq çox sevdi ağacı,
Verərdi ona hər qış,
Çiçəkləri olsaydı.

Ağac da çox sevdi çocuğu,
Öpərdi altun saçlarından,
Dodaqları olsaydı.

Və ona öpdürmək üçün
Əyilərdi yerə qədər,
Yanaqları olsaydı.

Tökərdi önünə hamısını,
Gümüşdən, sədəfdən
Oyuncaqları olsaydı.

Və çocuq getdikdən sonra
Yerində qalardımı ağac,
Ayaqları olsaydı,
Ayaqları olsaydı?!

## ANAM

İlk qundağın
Mən oldum, yavrum.
İlk oyuncağın
Mən oldum, yavrum.

Acı nədir,
Şirin nədir, bilməzdi
Dilin, damağın
Mən oldum, yavrum.
Əlinin yetmədiyi,
Dilinin dönmədiyi
Çağlarda, yavrum,
Qolun, qanadın
Mən oldum.
Dilin, dodağın
Mən oldum.

Bəlkə
Yaman gözlər
Götürməz deyə
Gizlədim gülücüklərini...
Əlin-ayağın
Mən oldum, yavrum.
Tülün-duvağın
Mən oldum, yavrum.

Artıq istərlərsə adımı
Heç deməsinlər mənə.
Onun anasıdır desinlər -
Bu yetər, yetər mənə.

Bir sözünü
İki etmədim,
Elə çırpındım ki,
Və səni elə sevdim ki...
İllər ötdü...
Saç-saqqalın ağardı...
Sən heç böyümədin ki...
İlk oyuncağın
Mən oldum, yavrum.
Son oyuncağın
Mən oldum, yavrum.

* * *

Yaşamaqdanmı yoruldum, bilməm,
Səni günlərcə gözləməkdənmi?
Yenə yavru ceyran kimi səkirsən,
Gün doğarkənmi, Ay batarkənmi?

Söylə: məmnunmusan uzaqlarda,
Yuvan isti, könülcüyün şənmi?

Yenə qalsınmı dizlərimdə başın,
Yenə qoynumda can çəkişsənmi?
Kim sorar, ey həyat, kim düşünər,
Vaxtımız gecmi, yoxsa erkənmi?

Söylə: məmnunmusan uzaqlarda,
Yuvan isti, könülcüyün şənmi?

Bilmirəm, gizli-gizli gəl dediyin
Ömür boyu incitdiyin mənmi?
Qədəhdəki meydənmi sərxoşam,
Yoxsa laübalı sevgindənmi?

Söylə: məmnunmusan uzaqlarda,
Yuvan isti, könülcüyün şənmi?

## QALX, İGİDİM

Qalx, igidim,
yenə dağ başını qar aldı,
Parçalandı Yer üzünün torpaqları.
Bozqurdların payını tülkülər aldı,
Qalx, igidim,
yenə dağ başını qar aldı.

Amma
Dünya fatehini aramaqda...
Axirət divarlarını
yıx da gəl.
Günəş doğar kimi, Ay doğar kimi,
Bu qıpqırmızı üfüqdən çıx da gəl.

Qalx, igidim,
yenə dağ başını qar aldı,
Parçalandı Yer üzünün torpaqları.
Bozqurdların payını tülkülər aldı,
Qalx, igidim,
yenə dağ başını qar aldı.

## İNANMAQ

Bardaqdan səni içmək,
Havadan səni udmaq,
Dolaşmaq, dolaşmaq,
amma yenə sənə dönmək,
Evimdə, evimdə
səni bulmaq...

Yolumuzda aylar-illər
basamaq-basamaq...
Basamaqların qalxmadığı yerə
Qanadlarımızla qalxmaq...

Silib təqvimdən günləri
Keçib gəldiyimiz
yollara baxmaq,
Rüzgarlarla əsmək,
sularla axmaq...
Bahar çiləmək yollara,
Dadmaq,
dadmaq aprelin dadını.
Ağız dolusu
çağırmaq, çağırmaq adını,
Və inanmaq, inanmaq, inanmaq,
Ninnilərinlə uyuyub,
türkülərinlə oyanmaq...

*Yerində pozmaq gərək zəmanənin fəndini,*
*Göstər: qabaran sular necə yıxar bəndini,*
*Kiçik bilmə, xor bilmə, dəliqanlım, kəndini,*
*Bu uçmuş qalanı yüksəldəcək daşdasan,*
*Fatehin İstanbulu fəth etdiyi yaşdasan.*

* * *

Yatızdırarkən bu sədəf süslü şimşir beşiyə,
Nəylə qundaqladılar həzrəti-Mövlananı?

Pərdələrdən qalxarkən musiqi çığlıq-çığlıq,
Neylə qundaqladılar həzrəti-Mövlananı.

Bir ipəkdən və köpükdən yaradılmış yumşaq
Tüllə qundaqladılar həzrəti-Mövlananı.

Yaz gəlincə yaylalardan dərilmiş, inciylə,
Güllə qundaqladılar həzrəti-Mövlananı.

Gecə mehtabı ələkdən keçirib kirpiklər,
Ayla qundaqladılar həzrəti-Mövlananı.

Məsnəvisində bir altun lülədən nur axıdıb,
Öylə qundaqladılar həzrəti-Mövlananı.

Bu ürək durmayacaqdır dedilər əsmadan,
Hayla qundaqladılar həzrəti-Mövlananı.

Gözələr dolduraraq kırbaların kövsərindən
Meylə qundaqladılar həzrəti-Mövlananı.

Və açıb ağzını Nişan Daşının Bəsmələlər
Suyla qundaqladılar həzrəti-Mövlananı.

Ruhlardan, ətirlərdən, durulardan duru bir
Şeylə qundaqladılar həzrəti-Mövlananı.

Ulu Tubaların altında təmiz gönüllər
Böylə qundaqladılar həzrəti-Mövlananı

## FƏTH MARŞI

*Türk gənclərinə*

Yelkənlər biçiləcək, yelkənlər tikiləcək,
Gəmilər torpaq yolla dənizə çəkiləcək,
Görünən düşmən surları bir-bir sökülləcək.
Yüyür, yatmısan, ya qəfləti-huşdasan?
Fatehin İstanbulu fəth etdiyi yaşdasan.

Sən də keçə bilərsən anadan, yardan, sərdən,
Bir dastan yarat ki, el söyləsin əzbərdən,
Xəbərin yoxmu sənin qanındakı hünərdən,
Eldə sənsən, dildə sən, hörmətdə lap başdasan,
Fatehin İstanbulu fəth etdiyi yaşdasan.

Yerində pozmaq gərək zəmanənin fəndini,
Göstər: qabaran sular necə yıxar bəndini,
Kiçik bilmə, xor bilmə, dəliqanlım, kəndini,
Bu uçmuş qalanı yüksəldəcək daşdasan,
Fatehin İstanbulu fəth etdiyi yaşdasan.

Bu kitablar Fatehdir, Səlimdir, Süleymandır,
Bu mehrab Sinanüddin, bu minarə Sinandır,
Haydı, artıq uyuyan qeyrətini oyandır,
Bilməm, niyə xırda-para işlərlə tolaşdasan,
Qızım, sən də Fatehlər doğacaq bir yaşdasan.

Dəliqanlım, bir işarə duyduğun gün atandan,
Yüyürəcəksən, millət yüyürəcək arxandan,
Sənə salam gətirdim Ulubatlı Həsənlən
Sən ki, bürclərə bayraq olacaq qumaşdasan,
Fatehin İstanbulu fəth etdiyi yaşdasan.

Boş ver, xarab saatlar yalan-malan işləsin,
Qoç igidlər cəm olub qışlalarda qışlasın,
Fəthçilər fəth üçün hazırlığa başlasın,
Vaxtdı artıq, aslanım, meydanda savaşdasan,
Fatehin İstanbulu fəth etdiyi yaşdasan.

## QIR AT

Qır atım deyib qolunu
Boynuma dola, gedəlim.
Bir-birinizə qol-qanad,
Can ola-ola gedəlim.

Qızlara bir gözəlləmə
Söylə də, öylə gedəlim.
Sonra halallaşmaq üçün
Gəl, Çənlibelə gedəlim.
Dağa-daşa, qurda-quşa
Sağlıqlar dilə, gedəlim.

Çənlibelə vida edib,
Bir başqa elə gedəlim.
Orada güldən sümbülə,
Sümbüldən gülə gedəlim.
Və içimizə göylərdən
Nur dola-dola gedəlim.
Qır atım deyib qolunu
Boynuma dola, gedəlim.

## HEÇ BİR ZAMAN

Bir çocuqsam,
Qucaqsız,
Oyuncaqsız,
Bir dəliqanlıyam,
Atsız,
Pusatsız
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Üfüqlərdə üzən
Bir gəmiyəm mən...
Rüzgarsız,
Yelkənsiz
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Yapyalnızsam,
Qismətini
gözləyən bir qızsam,
Və gələrsə, əgər, xoş günüm,
Başlarsa toy-düyünüm,
Telsiz-duvaqsız
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Nə fərqi, kişi ya qadın,
Övladıyam bu vətənin...
Sərhəddə qala bürcüyəm,
Yurduma bir can borcluyam,
Susuz,
Yuxusuz
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Ölsəm,
Bir şey istəməm,
Ay işığı düşün məzarıma.
Başdaşısız,
Yazısız
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Evsiz-eşiksiz,
Hər şeysiz
Ola bilərəm,
Bayraqsız - heç bir zaman.

Bizans önlərində bir yeniçəri...
Qılınc tutar, bayraq tutar əlləri...
Bu kimdir? - deyə sorsan,
Mənəm, Ulubatlı Həsən...
Əlim kəsilə bilər,
Ayağım kəsilə bilər,
Oxlar köksümü dələ bilər...
Əlsiz ola bilərəm,
Ayaqsız ola bilərəm,
Bayraqsız - heç bir zaman.

*Hazırladı:*
**DİLSUZ**

